AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | *Azərbaycan Respublikası Mərkəzi Bankın İdarə Heyətinin Qərarı* |
| Qəbul edildiyi tarix | *17.03.2014* |
| Qeydiyyat nömrəsi | *05/1* |
| Adı | *"Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında Təlimat"da dəyişiklik edilməsi barədə* |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | *05.04.2014* |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | *090.060.080* |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | *23201403170051* |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | *04.04.2014* |

Mərkəzi Bankın İdarə Heyətinin 2013-cü il 17 sentyabr tarixli 19/1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında Təlimat"ın "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 17 dekabr tarixli 852-IVQD nömrəli Qanununa uyğunlaşdırılmasını təmin etmək məqsədi ilə Mərkəzi Bankın İdarə Heyəti "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.0.17-ci və 44.3-cü maddələrinə əsasən

**Q Ə R A R A  A L I R:**

1. "Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında Təlimat"da dəyişiklik təsdiq edilsin (əlavə olunur);

2. Hüquq departamentinə (R.Məlikova) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçünƏdliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**Sədr**
**Elman Rüstəmov**

**"Təsdiq edilmişdir"**
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar № 05/1
17 mart 2014-cü il

**"Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında Təlimat"da dəyişiklik**

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2013-cü il 17 sentyabr tarixli 19/1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında Təlimat"a aşağıdakı məzmunda 1.6-cı bənd əlavə edilsin:

"1.6. Qrant verilməsi və ya alınması ilə bağlı nağdsız hesablaşma və pul köçürməsi əməliyyatları yalnız qrant verilməsi və ya alınması haqqında hər bir müqavilənin (qərarın) qeydə alınmasını təsdiq edən sənəd təqdim olunduqda aparılır.".